AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**HƏSƏNOVA FİRƏNGİZ ELDAR QIZI**

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA QAÇAQ KƏRƏM OBRAZI

**5716.01 – Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru
elmi dərəcəsi almaq üçün təqdim olunmuş
dissertasiyanın**

## A V T O R E F E R A T I

**B A K I - 2016**

Dissertasiya Bakı Dövlət Universitetinin Klassik Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **Qara Mustafa oğlu NAMAZOV**
*filologiya üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Şamil Qiyas oğlu VƏLİYEV**
*filologiya üzrə elmlər doktoru, professor*

**Kamran İmran oğlu ƏLİYEV**
*filologiya üzrə elmlər doktoru, professor*

**Aparıcı müəssisə:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası**

Müdafiə «_22___» _02_ 2016-cı il saat «___»-də Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyaların müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» ____________ 2016-cı ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə elmlər doktoru, professor:** **T.H.HÜSEYNOV**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Qaçaq Kərəm haqqında bir çox bədii əsərlər yaranmasına baxmayaraq bu sənət örnəkləri indiyədək ciddi, sistemli, monoqrafik şəkildə təhlil və tədqiq olunmamışdır. Bu, müdafiəyə təqdim olunan dissertasiyanın aktuallığını şərtləndirən amillərdəndir. Bundan əlavə, Qaçaq Kərəmlə bağlı yazılanların yeni təfəkkür işığında araşdırılması, təkcə mövzunu, problemi öyrənmək baxımından deyil, bütövlükdə qaçaqçılıq mövzusu müstəvisində ədəbiyyatımızın inkişaf yolunu izləmək baxımından əhəmiyyətə malikdir. Dissertasiya milli məfkurəyə söykəndiyi, yeni metodoloji aspektdə yazıldığı üçün burada ədəbi irsin dəyərləndirilməsində sovet ideoloji sisteminin formalaşdırdığı ənənəvi stereotiplərin qüsur və yanlışlıqları aşkarlanmışdır.

Dissertasiya işi Azərbaycan ədəbiyyatşünaslığında və ədəbi tənqidində tarixi roman janrının təhlili baxımından da mühüm diqqətə layiqdir. Çünki tarixçilərin, filosofların, sosioloqların öz fikirlərini müstəqim ifadə edə bilmədiyi, sovet siyasi rejimi dönəmində əsas etibarı ilə yazıçılar tarixi mövzuların qoynuna sığınaraq xalqın, ölkənin problemlərini əks etdirməyə nail olmuşlar. Bu anlamda sovet hakimiyyəti illərində yazılan tarixi əsərləri yalnız bədii fakt kimi dəyərləndirmək yanlışlıq olardı. Dissertasiyada Fərman Eyvazlının «Qaçaq Kərəm», Şəmistan Əsgərovun «Haçadağ» romanlarının və digər əsərlərin tariximizin qaranlıq, öyrənilməmiş səhifələrinə aydınlıq gətirilməsi yönündə təhlili aktualdır.

Tədqiqat işində adı çəkilən müəlliflərin yaradıcılığı fonunda bədii-estetik məsələlərə diqqət yetirilməsi nəsrimizin poetikasının öyrənilməsi təcrübəsini daha da zənginləşdirəcəkdir.

**Mövzunun tədqiqi tarixi**. Qaçaq Kərəm haqqında ilk tədqiqat hələ XX əsrin əvvəllərində yazılmışdır.

Azərbaycan folklorşünaslığında və ədəbiyyatşünaslığında isə Qaçaq Kərəm haqqında araşdırmalar ötən əsrin altmışıncı illərindən başlayaraq ardıcıl, sistemli şəkil almış, onunla bağlı müxtəlif səpkili tədqiqatlar elmi-nəzəri müstəviyə çıxarılmışdır.

Akademik Həmid Araslının «Aşıq yaradıcılığı» adlı monoqrafik tədqiqatında Qaçaq Kərəmlə bağlı yaranmış poetik mətnlərə münasibət bildirilmişdir.[1]

---

[1] Araslı H. Aşıq yaradıcılığı. Bakı: Xalq Yaradıcılıq Evi, 1960.

Rüstəm Rüstəmzadənin ayrı-ayrı tədqiqatlarında Qaçaq Kərəm haqqında yazılmış dastan varianları sistemli, əhatəli təhlil obyektinə çevrilmişdir.[1] O, bir tərəfdən dastanın mətnini nəşr etdirmiş, eyni zamanda «El qəhrəmanları xalq ədəbiyyatında» adlı monoqrafiyasında Qaçaq Kərəmlə bağlı qələmə alınan dastan və xalq arasında dolaşan rəvayət və süjetləri təhlil etmişdir. Rüstəm Rüstəmzadənin «Qaçaq Kərəm» və «Keçmişdə qaçaqlar» pyesi» və «Xalq qəhrəmanının obrazı» adlı məqalələrində isə obrazın yazılı ədəbiyyatda təcəssümü tədqiqat obyektinə çevrilmişdir.

Qara Namazovun «Xalq qəhrəmanının şöhrəti» adlı monoqrafik tədqiqatında Qaçaq Kərəm haqqında yazılmış dastanlar, rəvayətlər, poeziya nümunələri, hekayə, povest və romanlar müstəqil təhlil obyektinə çevrilmişdir. Tədqiqatçı şifahi xalq ədəbiyyatından tutmuş yazılı ədəbiyyatın ayrı-ayrı janrlarınadək mövcud ədəbi-bədii örnəkləri diqqətlə araşdırmış, böyük xalq qəhrəmanının şöhrətini səciyyələndirən məqamları izləmişdir.[2] Müəllifin digər tədqiqatlarında da «Qaçaq Kərəm» dastanı və qaçaqçılıqla bağlı yazılmış bədii örnəklərdən bu və ya digər şəkildə bəhs olunmuşdur.[3]

Paşa Əfəndiyevin ali məktəblər üçün yazdığı «Azərbaycan şifahi xalq ədəbiyyatı» adlı dərslikdə Qaçaq Kərəm haqqında yazılmış dastan variantlarına da müəyyən qədər yer verilmişdir.[4]

Qaçaq Kərəm haqqında yazılan tədqiqatlar içərisində Sirus Səduniyadın Tehranda nəşr etdirmiş olduğu «Qaçaq Kərəm (Qafqazda 12 illik qaçaqçılıq həyatından xatirələr)» adlı kitab xüsusi yer tutur. Tarixçi-ədəbiyyatşünas Rəhim Rəisniyanın müqəddisəsi ilə çap olunmuş bu əsərdə xalq qəhrəmanın həyat və mübarizə yolu sistemli şəkildə təqdim olunmuşdur. Adı çəkilən əsər Sənan İbrahimov tərəfindən farscadan Azərbaycan türkcəsinə tərcümə edilərək Qara Namazovun «Xalq qəhrəmanının şöhrəti» adlı monoqrafiyasının sonuna əlavə edilmişdir.[5]

Azad Nəbiyevin ikicildlik «Azərbaycan xalq ədəbiyyatı» adlı monu-

---

[1] Rüstəmzadə R. Qaçaq Kərəm və «Keçmişdə qaçaqlar» pyesi // Azərb. SSR EA Xəbərləri, «Ədəbiyyat, dil və incəsənət» seriyası, 1968, № 1, s. 3-10; Yenə onun. El qəhrəmanları xalq ədəbiyyatında. Bakı: Gənclik, 1984; Yenə onun. Qəhrəmanlıq nəğmələri. Bakı, 1985; Yenə onun. Xalq qəhrəmanının obrazı // Azərbaycan, 1988, № 4, s. 184-186.

[2] Namazov Q. Xalq qəhrəmanının şöhrəti. Bakı: Orxan, 2005.

[3] Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Maarif, 1984, 332 s.; Yenə onun. Rus ziyalıları aşıq sənəti haqqında, «Tədqiqlər», s. 2; Yenə onun. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: BDU nəşriyyatı, 2007.

[4] Əfəndiyev Paşa. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1981, s. 262-265.

[5] Namazov Q. Xalq qəhrəmanının şöhrəti. Bakı: Orxan, 2005, s. 196-296.

mental tədqiqatının ikinci cildində qaçaqçılıq hərəkatı fonunda Qaçaq Kərəm haqqında da məlumat verilmiş, onunla bağlı yaranmış dastan variantları geniş, əhatəli təhlilə cəlb olunmuşdur.[1] Müəllifin digər tədqiqatlarında da bəhs olunan problemlə bağlı müəyyən mülahizələr söylənilmişdir.[2]

Azərbaycan mühacirət folklorşünaslığında və mühacirət folklorşünaslığına həsr olunmuş bəzi tədqiqatlarda da qaçaqçılıqla bağlı yaranmış qəhrəmanlıq nəğmələrinə, süjet və rəvayətlərə, o cümlədən dastanlara bu və ya digər məqsədlə diqqət yetirilmiş, həmçinin «Qaçaq Kərəm» haqqında müəyyən mülahizələr irəli sürülmüşdür.

Azərbaycan tarixi roman janrının ciddi araşdırıcılarından olan Yavuz Axundovun «Azərbaycan sovet tarixi romanı», «Tarix və roman», «Tarixi roman yeni mərhələdə», «Ədəbi yaddaşdan səhifələr» və «Azərbaycan tarixi romanı: mərhələlər, problemlər» adlı monoqrafik tədqiqatlarında Qaçaq Kərəm haqqında yazılmış romanlar da bu və ya digər dərəcədə təhlil və tədqiq olunmuşdur.[3]

Tənqidçi Akif Hüseynovun «Nəsr və zaman», «Müxtəlifliyin birliyi», «Sənət meyarı» adlı monoqrafik tədqiqatlarında, habelə «Nəsrimiz və keçmişimiz» adlı məqaləsində Qaçaq Kərəmlə bağlı yazılmış tarixi romanlar analoji təhlilə çəkilmişdir.[4]

Cahangir Məmmədlinin «Çağdaş Azərbaycan nəsrinin inkişaf meylləri» adlı monoqrafik tədqiqatında tarixi nəsrdən bəhs olunarkən qaçaqçılıq mövzusunda yazılmış bədii örnəklərə də yer verilmiş və bu sırada Fərman Eyvazlının «Qaçaq Kərəm» romanı da təhlilə cəlb olunmuşdur.[5]

Həmçinin Nizami adına Ədəbiyyat İnstitutunun 1976-cı ildən başlayaraq çap etdiyi «Ədəbi proses» kitabında Qaçaq Kərəmlə bağlı ən dəyərli əsərlərdən birinin müəllifi Fərman Eyvazlının yaradıcılığı dövrün ədəbi

---

[1] Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı: İki cilddə, II c., Bakı: Elm, 2006, s. 601-611.
[2] Nəbiyev A. «Qaçaq Kərəm». «Kommunist» qəz., 1987, 18 iyul; Yenə onun. Azərbaycan aşıq məktəbləri. Bakı: Nurlan, 2004.
[3] Axundlu Y. Ədəbi yaddaşdan səhifələr. Bakı: «Adiloğlu» nəşriyyatı, 2002; Yenə onun. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər (1930-2000). Bakı: «Adiloğlu» nəşriyyatı, 2005; Yenə onun. Azərbaycan sovet tarixi romanı. Bakı: Yazıçı, 1979; Yenə onun. Tarix və roman. Bakı: Yazıçı, 1988.
[4] Hüseynov A. Nəsrimiz və keçmişimiz // Azərbaycan, 1982, № 9, s. 108-112; Yenə onun. Müxtəlifliyin birliyi. Bakı: Yazıçı, 1983; Yenə onun. Nəsr və zaman. Bakı: Yazıçı, 1980; Yenə onun. Sənət meyarı. Bakı: Yazıçı, 1986.
[5] Məmmədli C. Çağdaş Azərbaycan nəsrinin inkişaf meylləri. Bakı: BDU nəşriyyatı, 1998, s. 176-177.

icmalı fonunda müəyyən təhlil obyektinə çevrilmişdir.[1]

Bu tədqiqatlarla yanaşı, ayrı-ayrı dövrlərdə Qaçaq Kərəm və onun obrazının yaradıldığı əsərlər Məmməd Arif, Kamal Talıbzadə, İsmayıl Şıxlı, Vaqif Vəliyev, Fərhad Fərhadov, Kamran Məmmədov, Qulu Xəlilov, Hüseyn Arif, Sədnik Paşayev, Teymur Bünyadov, Nizami Cəfərov, Qəşəm Vəliyev, Məmməd Aslan, Barat Vüsal, Nübar Aslan, Tahirə Həsənzadə, Nigar İsayeva və başqa tənqidçi və ədəbiyyatşünaslar tərəfindən bu və ya digər şəkildə araşdırılmışdır.[2]

Dissertasiyada təhlil prosesində həmin tədqiqatlara bu və ya başqa şəkildə istinad olunmuş, münasibət bildirilmiş, onlardan bəhrələnilmişdir.

Lakin bütün bu tədqiqatlara baxmayaraq indiyədək Qaçaq Kərəmlə bağlı yazılmış əsərlər ciddi, sistemli şəkildə təhlil obyektinə çevrilməmiş, mövzunun inkişaf təkamülü ardıcıl şəkildə izlənilməmiş, mövcud sənət örnəkləri nəzəri müstəvidə dəyərləndirilməmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiyanın yazılmasının əsas məqsədi müasir Azərbaycan ədəbiyyatında Qaçaq Kərəmlə bağlı yazılmış bədii əsərlərin çağdaş təfəkkür işığında və milli-nəzəri müstəvidə araşdırılmasından ibarətdir. Bunun üçün dissertant aşağıdakı vəzifələri həyata keçirməyə çalışmışdır:

– Azərbaycan folklorunda Qaçaq Kərəm obrazının təhlil obyektinə çevrilməsi;

– Azərbaycan yazılı ədəbiyyatında Qaçaq Kərəm mövzusunun xronoloji ardıcıllıqla izlənilməsi;

– Yazılan bədii örnəklərin müraciət edildiyi ədəbi janrlar üzrə təhlil olunması;

---

[1] Ədəbi proses –76. Bakı: Elm, 1977; Ədəbi proses–77. Bakı: Elm, 1978; Ədəbi proses–78. Bakı: Elm, 1980; Ədəbi proses–79. Bakı: Elm, 1983; Ədəbi proses–80-81. Bakı: Elm, 1984.

[2] Aslan M. Qaçaq Kərəmi tanımaq istəyirsinizsə. «Bakı» qəz., 1987; Aslan N. «Kərəm qayası». «Vətən səsi» qəz., 1991, 10 aprel; Cəfərov N. Kür üstündə Kəsəmən... və onun yazıçı övladı // Ulduz, 1991, № 3, s. 59-60; Həsənzadə T. Qaçaq Kərəm (Anadan olmasının 140 illiyi). «Azərbaycan» qəz., 2000, 28 noyabr; Xəlilov Q. «Kərəm meydanı»ndan gələn səslər // Ulduz, 1988, № 2, s. 90-92; İsayeva N. Qaçaq rəvayətləri XX əsr Azərbaycan hekayəçilində // Filologiya məsələləri, 2007, № 4, s. 403-412; Talıbzadə K. Maksim Qorki və Azərbaycan. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1959; Vəliyev Q. Aşıq Şenliyin həyatı, mühiti və poetik yaradıcılığı: Filol. elm. nam. … dis. avtor. Bakı, 1992; Vüsal Barat. Hayıf Qaçaq Kərəm, İsrafil ağa // Azərbaycan, 2002, № 11, s. 180-183; Zeynalova D. İsmayıl Şıxlının sənət baxışlarında yazıçı və tarixi mövzu problemi // Filoloji araşdırmalar, XVIII kitab, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 2002, s.177-182.

– Poeziya və dramaturgiyada Qaçaq Kərəm obrazının təhlil obyektinə çevrilməsi;

– Azərbaycan tarixi nəsrinin qaçaqçılıq hərəkatı kontekstində Qaçaq Kərəm obrazına diqqət və marağının səciyyələndirilməsi;

– Azərbaycan folklorşünaslığında və ədəbiyyatşünaslığında Qaçaq Kərəm haqqında yazılmış tədqiqatlara münasibət bildirilməsi, onların meydana gəldiyi dövrün ideoloji stereotiplərdən qaynaqlanan qüsur və nöqsanlarının aşkarlanması;

– Qaçaq Kərəm haqqında yazılmış əsərlərin ideya-məzmun və qaldırılmış olduğu problemlər işığında təhlil edilməsi;

– Qaçaq Kərəmlə bağlı əsərlərin üslubunu səciyyələndirən sənətkarlıq məsələlərinin aşkarlanması;

– Azərbaycan tarixi nəsrinin inkişafı və təkamülündə Qaçaq Kərəmlə bağlı əsərlərin səciyyələndirilməsi;

– Bəhs olunan əsərlərin Azərbaycan ədəbiyyatı tarixində yerinin müəyyənləşdirilməsi.

**Tədqiqatın obyekti**. Dissertasiyanın tədqiqat obyektini Qaçaq Kərəm haqqında yaradılmış xalq ədəbiyyatı nümunələri, rəvayətlər, süjetlər, dastanlar və yazılı ədəbiyyatda bu tarixi şəxsiyyətə həsr olunmuş şeir, poema, hekayə, povest, roman və dramatik əsərlər təşkil etməkdədir. Təhlil prosesində xalq ədəbiyyatı nümunələri kimi səciyyələnən Qəmli Hüseynin «Qaçaq Kərəm», Qaraqoyunlu Qul Vəlinin «Kərəmlə Zalı xan» və «El arxası Qaçaq Kərəm», Göycəli Aşıq Məhəmmədin «Kərəm xan Sərtib», «Kərəmin İran səfəri», «Kərəmin Gürcüstan səfəri», «Kərəmlə İsrafil ağa», Aşıq Haşımın «Qaçaq Kərəm» adlı dastanlarından bəhs olunmuşdur.

Qaçaq Kərəm obrazının yazılı ədəbiyyatda araşdırılması kontekstində Məmməd Səid Ordubadinin «Dilican yolunda» adlı poeması, Səməd Vurğunun «Komsomol poeması», Osman Sarıvəllinin «Bu yerlər», Hüseyn Arifin «Nənəmin söylədikləri», «Gülnaz nənə», «Kəhər at», «Zınqrov», «İskəndər», «Amandır, durnaya güllə atmayın» kimi şeirləri, Nəriman Həsənzadənin «Qaçaq Kərəm» poeması, Mehdi Hüseynin «Kərəm əfsanəsi», İsmayıl Şıxlının «Namərd gülləsi» hekayələri, Fərman Eyvazlının «Qaçaq Kərəm», Şəmistan Əsgərovun «Haçadağ» romanları, Vəli Ləmbəlinin «Kərəm dastanı» povesti və «Dağlarda kişnərti» romanı, Eldar İsmayıl və Hüseyn Ələsgəroğlunun birlikdə qələmə aldıqları «Göyçənin qisası qalır» romanı, Nəcəf bəy Vəzirovun «Keçmişdə qaçaqlar» pyesi bu və ya digər şəkildə təhlil obyektinə çevrilmişdir. Qaçaq Kərəm obrazının işlənilməsi

tarixi kontekstdə gerçəkləşdirildiyindən mövzunun tədqiqi prosesində Azərbaycan ədəbiyyatşünaslığında tarixi nəsrlə bağlı araşdırmalara da istinad olunmuşdur. Həmçinin Qaçaq Kərəmlə bağlı yazılmış hekayə, povest və romanlar Azərbaycan tarixi nəsri kontestində araşdırıldığından dövrün müvafiq əsərləri də analoji şəkildə təhlilə çəkilmişdir.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyanın elmi yeniliyi Azərbaycan ədəbiyyatında Qaçaq Kərəmlə bağlı yazılan əsərlərin ilk dəfə olaraq sistemli şəkildə təhlilə çəkilməsi ilə bağlıdır. Tədqiqat işində Qaçaq Kərəmlə bağlı yazılmış ədəbi örnəklər – şeirlər, poemalar, hekayələr, povestlər və romanlar mövzu-mündəricə və ideya-problem baxımından araşdırılmışdır.

Dissertasiyanın elmi yeniliyini şərtləndirən amillərdən biri də burada Qaçaq Kərəm obrazının ayrıca, təcrid olunmuş şəkildə deyil, Azərbaycan ədəbiyyatı, tarixi nəsri və qaçaqçılıq mövzusu kontekstində təqdim olunmasındadır. Başqa sözlə, Qaçaq Kərəm mövzusunda yazılmış əsərlər dövrün analoji ədəbi örnəkləri ilə müqayisəli şəkildə təhlil edilmişdir.

Dissertasiyada Qaçaq Kərəm mövzusunda yazılmış bədii örnəklərin yaradıcılıq özünəməxsusluğu aşkarlanmış, yaranan əsərlərin fonunda ayrı-ayrı yazıçıların fərdi üslubunu formalaşdıran bədii-sənətkarlıq məsələlərinə diqqət yetirilmişdir.

Dissertasiyada Qaçaq Kərəm haqqında müxtəlif illərdə yazılan məqalə və tədqiqatlara diqqət yetirilmiş, onlardan bəhrənilmiş, həmçinin bu araşdırmaların ideoloji və metodoloji qüsurları üzə çıxarılmışdır.

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Tədqiqat işi tarixi-müqayisəli metodun prinsipləri əsasında yazılıb hazırlanmışdır. Təhlil və tədqiq prosesində yeri gəldikcə müasir ədəbiyyatşünaslığın elmi-nəzəri müddəalarından, tarixi nəsr və roman janrı ilə bağlı araşdırmaların nəticələrindən istifadə edilmişdir. Tədqiqat işində folklorşünaslıqla bağlı araşdırmaların nəticələrinə də istinad edilmişdir.

**Tədqiqatın nəzəri-praktik əhəmiyyəti.** Dissertasiya işi Qaçaq Kərəmlə bağlı yazılmış bədii örnəklərə həsr edilmiş ilk sistemli tədqiqat olduğu üçün bu sahədə gələcək araşdırmaların zəmini ola bilər. Tədqiqat işi ümumi təhlil istiqamətləri, elmi-nəzəri yanaşma və araşdırma formulları baxımından çağdaş ədəbiyyatşünaslıq üçün metodoloji əhəmiyyət daşıyır.

İşin nəticələrindən folklorşünaslıq, müasir Azərbaycan ədəbiyyatı, tarixi nəsr, ədəbi nəsrin poetikası və digər məsələlərlə bağlı tədqiqat aparan mütəxəssislər faydalana bilərlər. Bundan əlavə, dissertasiyadan ali məktəblərin filologiya fakültələrində ümumi və xüsusi kursların tədrisində də isti-

fadə etmək mümkündür.

**Dissertasiyanın aprobasiyası**. Dissertasiya işi AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən «Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları» adlı koordinasiya mərkəzində qeydiyyatdan keçmiş, Bakı Dövlət Universitetinin Klassik Azərbaycan ədəbiyyatı kafedrasında hazırlanıb yerinə yetirilmişdir. Müəllif mövzu ilə bağlı «Mədəniyyət dünyası» və «Elmi axtarışlar» məcmuələrində, «Dədə Qorqud», «Dil və ədəbiyyat» jurnallarında məqalələrlə və respublikada keçirilən konfranslarda məruzələrlə çıxış etmişdir. Tədqiqatın nəticəsi  ayrıca monoqrafik tədqiqatda da əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılmış və elmi yeniliyi şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, nəzəri və praktik əhəmiyyətindən, tədqiqat zamanı istifadə olunan metod və mənbələrdən bəhs olunmuş, işin aprobasiya və quruluşu barədə məlumat verilmişdir.

Dissertasiyanın **I fəsli «Qaçaq Kərəm obrazı xalq ədəbiyyatında»** adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir.

Dissertasiyanın **I fəslinin birinci yarımfəsli** «**Rəvayətlərdə yaşayan obraz**» adlanır. Burada Qaçaq Kərəm haqqında yaranmış rəvayət və süjetlər təhlil obyektinə çevrilmişdir. Qeyd edək ki, Qaçaq Kərəm haqqında rəvayət və süjetlər hələ onun sağlığında, mübarizə apardığı illərdə yaranmağa başlamışdır.

Məlum olduğu kimi, tarixi şəxsiyyət olan Qaçaq Kərəm 1860-cı ildə Qazax bölgəsinin Qıraq Kəsəmən kəndində dünyaya gəlmişdir. O, təxmi-nən iyirmi yaşlarından qaçaqçılığa başlamış, qısa bir zaman ərzində yalnız Azərbaycanda deyil, bütün Qafqazda ad-san çıxarmışdır. Qaçaq Kərəm apardığı mübarizəsi ilə Çar Rusiyasının hakimiyyət orqanlarını daim xof və qorxu içərisində saxlamış, xalqın mənafeyinin qorunmasında əlindən gələni əsirgəməmiş, müstəmləkəçilik əleyhinə mübarizədə böyük uğurlar əldə etmişdir. Lakin çar general-qubernatorunun ciddi, gərgin səyləri nəticəsində üzə çıxarılaraq günahları bağışlanmışdır. Bundan sonra qaçaqçılıqdan əl çəkən Kərəm Azərbaycanın Güneyinə pənah aparmış, 1909-cu ildə orada vəfat etmişdir.

Qaçaqçılığa başladığı gündən Kərəm daim yoxsulların, kimsəsizlərin, haqqı-hüququ tapdananların mənafeyini qorumağa çalışmış, cəngavərliyi, mərdliyi, insanpərvərliyi ilə el arasında ad-san və nüfuz qazanmışdır. Kərəm haqqında qoşulan rəvayətlərin bir çoxu həyat həqiqətləri ilə səsləşməkdə, onun göstərmiş olduğu qəhrəmanlıqların xalq təfəkküründə inikası kimi diqqəti çəkməkdədir. Lakin bu rəvayətlərin bir qismi xalq ədəbiyyatının digər janrlarında olduğu kimi məzmununu dəyişərək əfsanəyə çevrilmişdir. Şübhəsiz ki, bu, Qaçaq Kərəmin şəxsiyyətinə olan hörmətdən, onun göstərdiyi igidlik və qəhrəmanlığın xalq təfəkküründə dərin iz buraxmasından qaynaqlanmaqdadır.

Qaçaq Kərəm haqqında qoşulan rəvayətlərin bir qismini Qara Namazov «Xalq qəhrəmanının şöhrəti» adlı kitabına daxil etmiş və onları xalq ədəbiyyatı nümunələri kimi dəyərləndirməyə çalışmışdır. Bunların içərisində Kərəmin qaçaq düşməsindən əvvəl onun haqqında qoşulmuş rəvayətlər diqqəti çəkir. Qeyd edək ki, Kərəmlə süd qardaşı olan İsrafil ağanın Kür sahilinə birgə səfərləri, ovçuluq macəraları və bu kimi digər münasibətləri fonunda baş verən əhvalatlar xalqın hafizəsində yaşamaqdadır. «Kərəmin Gürcüstan səfəri» adlanan bu əhvalatlardan biri daha çox diqqəti çəkməkdədir. Bu rəvayətlər dissertasiyada ətraflı təhlilini tapmışdır.

Dissertasiyada həmçinin «Kərəm qayası» adı ilə el arasında müqəddəs hesab olunan məskənlə bağlı yaranmış əfsanəyə də toxunulmuşdur.

Qaraqoyunluda Qaçaq Kərəmlə İsrafil ağa arasında olan digər bir rəvayət maraq doğurmaqdadır. Yazıçı Mehdi Hüseynin və Fərman Eyvazlının istifadə etdikləri bu rəvayətin bir qədər fərqli variantı professor Qara Namazov təqdimantında «Vətən səsi» qəzetində dərc olunmuşdur.

Kərəm haqqında mövcud olan rəvayətlərin bəziləri Azərbaycanın hüdudlarını aşıb keçmiş, onun haqqında dəyərli fikir və qənaətlərin ortaya çıxmasına təkan vermişdir. Bunlardan bəzilərinə S.Filippovun «Povolje. Don və Qafqaz» əsərində təsadüf olunmaqdadır:

Bu və ya digər məzmunlu rəvayətlər görkəmli rus yazıçısı Maksim Qorkinin Qaçaq Kərəm haqqında ətraflı bəhs olunan «Qafqazda qaçaqlar» adlı silsilə oçerklərində də özünə yer tapmışdır. Rusiyada inqilabın yetişdiyi bir dövrdə Maksim Qorkinin «Qafqazda qaçaqlar» əsərini yazıb nəşr etdirməsi də səbəbsiz deyildi. O, Qaçaq Kərəmin mütləqiyyətə qarşı vuruşduğunu, yoxsulları müdafiə etdiyini yaxşı bilirdi.

Qaçaq Kərəmin mərdliyi, cəsurluğu, insanpərvərliyi Maksim Qorkiyə müsbət təsir bağışlamış, buna görə də yazıçı onun şəxsiyyətinə olan hörmət

və məhəbbətini gizlədə bilməmişdir.

Bəzi dövlət məmurlarının cəsurluğuna, qəhrəmanlığına, haqq-ədalət tərəfdarı olduğuna görə Qaçaq Kərəmə rəğbət bəsləməsi, yeri gəldikdə onu himayə etməsi rus polkovniki V.Kazaçkovskinin «Qafqazda qaçaqlar» adlı gündəliyində öz əksini tapmışdır. V.Kazaçkovskinin yazdığına görə, Qaçaq Kərəmin nəinki xalq arasında, hətta dövlət idarələrində də dostları olmuşdur.

Qaçaq Kərəm Azərbaycanın Güneyinə getməyə məcbur olandan sonra orada haqqında bir sıra rəvayətlər yaranmışdır.

Onu da xatırladaq ki, xalqın Qaçaq Kərəmə olan qeyri-adi məhəbbəti və hüsn-rəğbəti onun haqqında qoşulmuş ayrı-ayrı bayatılarda da bədii ifadəsini tapmışdır. Hüseyn Arif «Gülnaz nənənin bayatıları» adlı məqaləsində yeri gəldikcə həmin bayatılardan örnəklər gətirilmişdir.

Bütün bunlar Qaçaq Kərəmin igid, qəhrəman, mübariz bir insan kimi qeyri-adi mənəvi-əxlaqi keyfiyyətlərə malik olduğunu, haqq-ədalət tərəfdarı kimi xalq arasında böyük nüfuz qazandığını göstərməkdədir. Lakin təəssüf ki, Qaçaq Kərəm haqqında yayılmış rəvayət, əfsanə, süjet, bayatı və digər folklor örnəkləri indiyə qədər sistemli şəkildə öyrənilməmişdir.

Dissertasiyanın **I fəslinin ikinci yarımfəsli** «**Dastan qəhrəmanı kimi**» adlanır. Bu bölmədə Qaçaq Kərəm haqqında yaranmış daastanlar təhlil obyektinə çevrilmişdir. Qeyd edək ki, Qaçaq Kərəmin qeyri-adi qəhrəmanlığı, igidliyi və insanpərvərliyi yalnız ayrı-ayrı rəvayətlərdə deyil, geniş səpkili xalq dastanlarında da öz ifadəsini tapmışdır. Bunların içərisində Qəmli Hüseynin «Qaçaq Kərəm», Qaraqoyunlu Qul Vəlinin «Kərəmlə Zalı xan» və «El arxası Qaçaq Kərəm», Göycəli Aşıq Məhəmmədin «Kərəm xan sərtib», «Kərəmin İran səfəri», «Kərəmin Gürcüstan səfəri», «Kərəmlə İsrafil ağa», Aşıq Haşımın «Qaçaq Kərəm» adlı dastanları daha çox diqqəti çəkməkdə və xalq qəhrəmanının canlı obrazını əks etdirməkdədir. Eyni zamanda, Murad Niyazlının «Muxtar bəy» («Qaçaq Süleyman») və Aşıq Şenliyin «Məhəmməd və Güldənə» dastanlarında Qaçaq Kərəmdən bəhs olunmuş, onun qəhrəmanlığı və insanpərvərliyi təqdir edilmişdir.

XX yüzilin ilk illərindən yaranmağa başlayan bu xalq ədəbiyyatı nümunələri isərisində Qəmli Hüseynin «Qaçaq Kərəm» dastanı istər həcm, istərsə də məzmun etibarı ilə daha bitkin və kamil təsir bağışlamaqdadır. Bu, hər şeydən əvvəl, dastan müəllifinin Qaçaq Kərəmin həmyerlisi olması, hələ uşaqkən onun qaçaqçılıq fəaliyyəti haqqında geniş və zəngin məlumat ala

bilməsi ilə bağlıdır. Ortaçağ dastançılıq ənənələrindən, eləcə də qəhrəmanlıq eposlarımızın ruhundan bəhrələnilərək yaradılan bu dastanda Kərəmin apardığı haqq-ədalət uğrunda çətin, mürəkkəb mübarizənin canlı, dolğun və hərtərəfli mənzərəsi yaradılmışdır.

Dastanın başlanğıcında Kərəmin valideynləri həyat tərzi, yaşayışı haqqında məlumat verilmiş, atası Molla Zal oğlu İskəndərin bütün Qafqazda igid, qəhrəman bir şəxs kimi ad çıxarmasından, el arasında xətir-hörmət sahibi olmasından danışılmışdır. Qəmli Hüseyn hələ uşaqkən Kərəmin at minməyi, güllə atmağı öyrənməsinə, yoldaşları arasında ad çıxarmasına, özündən böyüklərin hörmətini saxlamasına diqqəti çəkmiş, onu dastan qəhrəmanı kimi formalaşdıran mühitin real tablosunu çəkməyə çalışmışdır.

Dastanda Qaçaq Kərəmin uşaqlıq dostu İsrafil ağa ilə münasibətlərinin pozulması, onun gürcü tavatını döyməsi, tavatın göndərdiyi «qonaqlar»ın atası İskəndəri öldürmək istəmələri və s. hadisə və əhvalatlar münaqişə və ziddiyyətlərin kəskinləşməsini şərtləndirən məqamlar kimi diqqəti çəkir. Xüsusilə, süjetin yalnız Kərəmlə İsrafil ağa arasındakı münasibətlərlə məhdudlaşmaması, daha geniş miqyas alması cərəyan edən hadisələrin epik vüsətini əks etdirir. Lakin Qaçaq Kərəmlə İsrafil ağanın münasibətləri bütün dastan boyu əsas epizodlardan biri kimi hadisələrin daxili-məntiqi inkişafına və təkamülünə təkan verən amil kimi səciyyələnir.

Qəmli Hüseynin dastan variantında Kərəmin qaçaqçılığa başlayandan sonra öz dəstəsini yaratması, ətrafına el arasında cəsurluğu ilə ad-san çıxarmış şəxsləri toplaması inandırıcı detallarla təsvir olunmuşdur. Dastanda Kərəmin dəstəsinə qoşulan hər bir şəxsin göstərdiyi qəhrəmanlığı əks etdirən epizodlar da yer almış və bu, əsərin epik vüsətinin genişlənməsinə səbəb olmuşdur. Lakin real həyatda olduğu kimi, dastanda da Kərəmin dəstəsi geniş deyil, cəmisi yeddi-səkkiz nəfərdən ibarət təsvir olunmuşdur.

Dastandakı kədərli səhifələrdən biri Qaçaq Kərəmin ölüm xəbəri ilə nişanlısının aldadılması və qəfil xəbərin qadının ölümünə səbəb olmasıdır. Nişanlısının erkən, vaxtsız ölümü Qaçaq Kərəmi də sarsıdır və bu hadisədən sonra o, doğma yerləri tərk edərək qürbətə üz tutur. Əvvəlcə, Osmanlı imperiyasında yaşayan Kərəm daha sonra Azərbaycanın Güneyinə üz tutur.

Dastanda Qaçaq Kərəmin Güney Azərbaycana pənah apardığı ilk dövrlərdə qarşılaşdığı çətinliklər, üzləşdiyi hadisə və əhvalatlar maraqlı, yaddaqalan detallarla təsvir olunmuşdur. Kərəmin Qəhrəman xanı öldürmək istəyən sui-qəsdçilərdən qurtarması səhnəsi də xalq qəhrəmanının ağıl,

dərrakə, zəka baxımından da digərlərindən seçildiyini göstərməkdədir.

Əsərdə Kərəmin Qəhrəman xanın dəstəsinə qoşularaq Mirzəli xanın pəhləvanı Bədirlə döyüşdə ona qalib gəlməsi, daha sonra Zalı xanı öldürməsi səhnələri də real cizgilərlə əks olunmuşdur. Aşıq Hüseyn Qaçaq Kərəmin Azərbaycanın Güneyində keçən qaçaqçılıq həyatının ən səciyyəvi məqamlarını əks etdirməyə üstünlük vermişdir. Dastan müəllifi Kərəmin İranda keçən günlərinin təsvirində vətən həsrətinin, qəribliyin, el-obadan uzaq düşməyin onun ruhunda yaratdığı qəmli-kədərli yaşantıları əks etdirməyə çalışmışdır.

Aşıq Haşımın dilindən qələmə alınmış, indiyədək çap olunmamış «Qaçaq Kərəm» adlı dastanı Qəmli Hüseynin variantından bir sıra xüsusiyyətlərinə görə seçilməkdədir. Dastanın əsli Azad Nəbiyevin şəxsi arxivində saxlanmaqdadır. Müxtəlif qollardan ibarət olan bu variantda «Qaçaq Kərəmin özünəməxsus bir keyfiyyəti açılır, onun müxtəlif səfərləri qolların əsas məzmununu təşkil edir. Əgər Aşıq Hüseyn variantı Qaçaq Kərəmin məhdud bir obrazını qəhrəmanlıq kimi tərənnüm edirsə, buradakı ziddiyyətlər Kərəm – İsrafil ağa xəttində cərəyan edirsə, Aşıq Haşım variantında Kərəm Azərbaycan xalqının milli-mənəvi dəyərlərini geniş şəkildə əhatə edən qəhrəman obrazı səviyyəsinə yüksəlir».[1]

Qaçaq Kərəmə həsr olunmuş dastanlar içərisində Aşıq Vəlinin variantı da orijinallığı, bənzərsizliyi ilə seçilir. Xatırladaq ki, dastanın Aşıq Vəliyə məxsus «El arxası Qaçaq Kərəm» və «Qaçaq Kərəm və Zalı xan» adlanan variantları folklorşünaslara məlumdur. Aşıq Vəlinin variantı tam deyildir, dastan süjetinin bir hissəsini əhatə etməkdədir. Bəzi tədqiqatçılar dastanın bu variantının Azərbaycanın Güneyində – Təbriz aşıq mühitində yaranıb formalaşdığını, dildən-dilə keçərək Vətənimizin Quzeyində də yayıldığını ehtimal etməkdədir. Qul Vəlinin Kərəm haqqında düzüb qoşduğu dastan bir neçə variantda yayılmışdır. Dastanın məzmunundan aydın hiss olunur ki, dastan bütöv olmuş, Kərəm İranda yurd saldığına görə ona münasibət sovet dövründə səngimiş, yaddaşlarda dastandan parçalar qalmışdır». Rüstəm Rüstəmzadənin qənaətincə, Aşıq Vəli variantı Aşıq Haşım variantındakı «Qaçaq Kərəm və Zalı xan» qolunu əhatə etməkdədir.

«Qaçaq Kərəm və Zalı xan» variantının deyişmə bölümü 1937-ci ildə folklorşünas alim Hümmət Əlizadənin nəşrə hazırladığı «Aşıqlar» kitabının ikinci hissəsinə daxil edilmişdir.

---

[1] A. Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı, II c., s. 605.

Aşıq Vəliyə məxsus dastanın «El arxası Qaçaq Kərəm» adlı bölümü İcevan rayonunun Haqqıxlı kəndində yaşayan səksən yeddi yaşlı Məhəmməd Həsən oğlunun dilindən qələmə almışdır. Dastanın bu variantında Qaçaq Kərəmin qəhrəmanlığını şərtləndirən bəzi epizodlar yer almışdır.

Qul Vəliyə məxsus dastan variantında diqqəti çəkən və digər variantlardan seçilən məqamlardan biri də Qaçaq Kərəmin ictimai-siyasi baxışlarının, dünyagörüşünün aşkar şəkildə ifadə olunduğu məqamların özünə yer tapmasıdır.

Əslən Göycənin Zərzəbil kəndindən olan Aşıq Məhəmmədin «Kərəm xan sərtib» adlı dastanında Qaçaq Kərəmin İsrafil ağa ilə düşmənçiliyinin ayrı-ayrı məqamları, xalq qəhrəmanının hakimiyyət orqanları tərəfindən təqib və təzyiqlərə məruz qalması, silahdaşları ilə birgə Azərbaycanın Güneyinə pənah aparması və burada baş verən hadisə və əhvalatlar bədii əksini tapmışdır.

1926-cı ildə yaradılmış olan bu dastan variantının süjet xətti bir sıra canlı, real təsir bağışlayan hadisə, əhvalat və epizodlarla müşayiət olunmaqdadır. Xüsusilə, dastanda Qaçaq Kərəmin Zalı xanı öldürməsi səhnəsi bu baxımdan səciyyəvidir.

Bir məsələni də xatırlatmağa ehtiyac vardır ki, Aşıq Şenliyin «Məhəmməd və Güldənə» adlı dastanında da Qaçaq Kərəmlə bağlı süjetə təsadüf olunmaqdadır. Adı çəkilən dastanı folklorşünas Qəşəm Vəliyev Aşıq İskəndər Ağbabalının dilindən yazıya almışdır. Aşıq Şenliyin həyat və yaradıcılığı haqqında namizədlik dissertasiyası yazan Qəşəm Vəliyev bu dastanın mövcudluğuna diqqəti çəkmişdir: «Məhəmməd və Güldənə» dastanında Məhəmmədin sevgi iztirablarından bəhs olunur. Məhəmməd kasıb olduğuna görə Güldənənin atası onların qovuşmasına mane olmağa çalışır. Elin qeyrətli oğlu Qaçaq Kərəm sevgililəri bir-birinə qovuşdurur..

Qaçaq Kərəmə həsr olunmuş dastan variantlarında yaradılmış obrazlar müxtəlif sosial zümrəyə, təbəqəyə, fərqli siyasi baxışlara, dünyagörüşünə və mənəvi-əxlaqi keyfiyyətlərə malikdir. Dastan müəllifləri bəhs olunan dövrün mövcud cəmiyyət həyatını bütün gerçəkliyi, dolğunluğu ilə canlandırmaq üçün qaçaq, kəndli, məmur, bəy, ağa, mülkədar, sahibkar, tacir, çinovnik, pristav, tavat, general və s. kimi müxtəlif sosial təbəqələri real, yaddaqalan cizgiləri ilə təqdim edə bilmişlər. Lakin dastanlarda təbii ki, hadisə və əhvalatların mərkəzində Qaçaq Kərəmin obrazı dayanmaqdadır. Təsvir və təqdim olunan bütün digər surətlər məhz Qaçaq Kərəmin daxili dünyasının ayrı-ayrı çalarlarını, mənəvi-əxlaqi keyfiyyətlərini aşkarlamağa

xidmət etməkdədir.

«Qaçaq Kərəm» dastanının dövrümüzə qədər gəlib çatan bütün variantlarında azadlıq, hürriyyət, haqq və ədalət uğrunda mübarizə bu və ya digər şəkildə özünü büruzə verməkdədir. Dastanlarda yalnız Kərəm, İsrafil ağa və digər qəhrəmanların şücaəti, igidliyi əks etdirilməmiş, bütövlükdə XIX əsrin sonları, XX əsrin əvvəllərində Azərbaycan kəndinin sosial-siyasi mənzərəsi bədii ifadəsini tapmışdır.

Dissertasiyanın **II fəsli «Qaçaq Kərəm obrazının poeziya və dramaturgiyada təcəssümü»** adlınır. Bu fəsil üç yarımfəsildən ibarətdir.

Dissertasiyanın **II fəslinin birinci yarımfəsli «Obrazın poeziyada işlənilməsi»** adlanır. Burada Qaçaq Kərəm haqqında yazılan poetik örnəklər elmi-nəzəri təhlilini tapmışdır.

Qaçaq Kərəm haqqında yazılan şeirlər kəmiyyət etibarı ilə o qədər də çox deyildir. Lakin bir məqamı xatırlatmağa ehtiyac vardır ki, bilavasitə Qaçaq Kərəmə həsr olunmuş şeirlərlə yanaşı, bir çox poetik nümunələrdə onun adı xatırlanmış, bu və ya digər şəkildə yad edilmişdir. Bütün bunlar Qaçaq Kərəmin Azərbaycan tarixində müstəsna xidmətləri olan şəxsiyyətlərdən biri kimi dəyərləndirildiyini göstərməkdədir.

Xüsusilə, ötən əsrin iyirminci-otuzuncu illərində Azərbaycan poeziyasında onun adı igidlik, qəhrəmanlıq, əyilməzlik simvolu kimi mənalaşmış və tərənnüm olunmuşdur. Bu illərdə Qaçaq Kərəmə həsr olunmuş poetik örnəklər içərisində Məmməd Səid Ordubadinin «Dilican yolunda» adlı poeması maraq doğurmaqdadır. Etnoqrafik səciyyəli bu əsər müəllifin 1929-cu ildə bir qrup yazıçı ilə birlikdə İrəvana səyahəti fonunda qələmə alınmışdır.

«Dilican yolunda» poeması dörd kiçik hissədən ibarətdir. Səfər təəssüratı fonunda yazılmış poemada füsunkar gözəlliyə malik olan Dilicanın təbii mənzərələri, yaşıllıqlarla əhatə olunmuş təbiəti, Qazax elatının yaylağa köçü və digər bədii lövhələr özünəməxsus ifadəsini tapmışdır. Müəllif Kərəmin qaçaqçılıq etdiyi yerləri orijinal səpkidə qələmə almışdır. O, Molla qayasını belə təqdim edir:

*Molla qayasından keçdiyim zaman,*
*Elə hiss etdim ki, dedilər «Dayan!»*
*Dedilər başqadır bu yerin şahı,*
*Kərəmdir buranın qadir allahı.*

«Dilican yolunda» poemasının müxtəlif epizodlarında müəllif Qaçaq

Kərəmin apardığı qəhrəmanlıq mübarizəsinin tarixin yaddaşına hopmuş bir sıra maraqlı, yaddaqalan səhifələrini canlandırmışdır. Poemadakı məhz bu kimi səhifələr əsərin bədii siqlətini şərtləndirməkdədir.

Məmməd Səid Ordubadi «Dilican yolunda» poemasında Molla qayasının ətəyində Qaçaq Kərəmin bazar açdığı, varlı və zəngin adamların karvanlarını soyaraq yoxsullara payladığı «Kərəm bazarı» adlanan yerin təsvirinə daha çox diqqət yetirmişdir. Şair elin yaylağa gedərkən bir zamanlar Kərəmin qəhrəmanlıq göstərdiyi bu yerlərdən keçməsini və bu məqamda tarixi hadisələrin xatırlanmasını nəzərdən qaçırmamışdır.

Məmməd Səid Ordubadi poemada «Kərəm körpüsü»nü real, inandırıcı cizgilərlə xalqın yaddaşına köçürmək üçün bədii sözün mövcud imkanlarından istifadə etməyə çalışmışdır. Şair həmçinin xalqın Kərəmi unutmadığını, unutmağa haqqı olmadığını, öz milli qəhrəmanına olan sevgisinin əksilmədiyini də diqqətdən qaçırmamışdır.

Şübhəsiz ki, poemanın yarandığı dövrdə siyasi ideologiyaya hakim olan sinfilik ədəbi məfkurəyə də təsirsiz qalmamış, bu da əsərə bir sıra məqamlarda konyuktur elementlərin yol tapmasına səbəb olmuşdur. Lakin bununla belə, «Dilican yolunda» poeması istər Məmməd Səid Ordubadinin yaradıcılığında, istərsə də bütövlükdə Azərbaycan poeziyası tarixində özünəməxsus yer tutan bədii örnəklərdən biridir.

Azərbaycanın xalq şairi Səməd Vurğunun ədəbiyyatımızın təkrarsız nümunələrindən biri olan məşhur «Komsomol poeması»nda da Qaçaq Kərəmin qəhrəmanlığı, cəsarəti və haqq-ədalət uğrunda apardığı mübarizəsi rəğbətlə yad edilmişdir. Bu isə poemanın qələmə alındığı illərdə Qaçaq Kərəmin şəxsiyyətinə marağın azalmadığını göstərməkdədir. Əsərin «Qanlı çadır» fəslində şair tarixi hadisələri xatırlayaraq yazır:

*Deyirlər, bu dağın ətəklərindən,*
*Kərəm dəstəsilə yeriyib hərdən.*
*Bulaqlar başında qurban kəsərmiş,*
*Bəylər, mülkədarlar tir-tir əsərmiş.*

Səməd Vurğunun «Komsomol poeması» əsərində Qaçaq Kərəmin bir zamanlar mübarizə aparmaq üçün məskunlaşdığı, indi isə qəhrəmanı Gəray bəyin özünə sığınacaq yeri seçdiyi dağın «Qaçaqlar dağı» adlandırılmasının səbəblərinə də aydınlıq gətirmişdir:

*«Qaçaqlar dağı»dır bu dağın adı,*
*Özündən ayrılır qolu, qanadı.*
*Bu dağ düşündürür arabir məni,*

*İndi Gəray bəyin olmuş məskəni.*

Azərbaycanın xalq şairi Osman Sarıvəllinin «Bu yerlər» adlı şeirində xalqımızın tarixində mühüm yer tutan bir çox tarixi şəxsiyyətlərlə yanaşı, Qaçaq Kərəmin də adı xatırlanmaqdadır.

*Vidadi xanlardan görmədi kərəm,*
*Vaqifə dağ çəkdi burda min sənəm.*
*Öldü qoç Koroğlu, öldü xan Kərəm,*
*Sinəsi kədərli qaldı bu yerlər.*

Azərbaycan poeziyasında Qaçaq Kərəm mövzusuna ən çox müraciət edən sənətkarlardan biri xalq şairi Hüseyn Arifdir. Onun müxtəlif illərdə qələmə aldığı «Nənəmin söylədikləri», «Gülnaz nənə», «Kəhər at», «Zınqrov», «İskəndər», «Amandır, durnaya güllə atmayın» kimi şeirləri Qaçaq Kərəmə diqqət və marağın yönəldilməsi, onun yetişdiyi mühitin gerçək mənzərəsinin yaradılması baxımından maraq doğurmaqdadır. Epik səpkidə qələm alınmış bu şeirlərdə Hüseyn Arif xalqın yaddaşında silinməz izlər buraxmış Qaçaq Kərəmin canlı obrazını yaratmağa çalışmışdır. Onu da qeyd edək ki, Hüseyn Arifin nənəsi Zal qızı Gülnazın gəlini olduğundan təsvir olunan hadisələrin reallığı, həyat həqiqətlərinə uyğunluğu şübhə doğurmur. Müəllifin də şeirləri məhz Zal qızı Gülnazın xatirələri fonunda təqdim etməsi təsadüfi deyildir.

Onu da qeyd etmək lazımdır ki, Hüseyn Arif Qaçaq Kərəmin şəxsiyyətinə böyük dəyər vermiş, bütövlükdə poetik yaradıcılığının şah əsəri kimi dəyərləndirilən «Dilqəm» poemasında onun adını sevimli oğlu Arif və Yəhya bəy Dilqəmlə bərabər çəkmişdir:

*Məndən ötrü nə sevinc var, nə həvəs,*
*Küçə qəfəs, həyat qəfəs, ev qəfəs.*
*Hüseynə ürəyini açan kəs,*
*Ya Arifdir, ya Kərəmdir, ya Dilqəm.*

Azərbaycanın xalq şairi Nəriman Həsənzadənin «Qaçaq Kərəm» poeması da görkəmli xalq qəhrəmanının həyat və mübarizə yoluna həsr olunmuşdur. Həcmcə o qədər də böyük olmayan poema daha çox tərənnüm ruhundadır. Şair həyatı rəvayətlərə dönmüş, əfsanələşmiş Kərəmin taleyini vətənin taleyi ilə bərabər tutaraq ona olan rəğbət və məhəbbətini ifadə etməyə çalışmışdır.

*Rəvayətlər, əfsanələr nəsil-nəsil Kərəm deyir,*
*Kərəmə baş əyməyənlər nəsil-nəsil Kərəm deyir.*
*Azərbaycan deməyənlər nəsil-nəsil Kərəm deyir,*

*Ya ilahi bir vergiydi, ya möcüzə, Qaçaq Kərəm.*

Nəriman Həsənzadə «Qaçaq Kərəm» poemasında öz qəhrəmanının canlı, dolğun obrazını yaratmağa çalışmış, onun daxili-mənəvi dünyasını aşkarlamaq məramını izləmişdir. Şairin qənaətincə, dünyaya Qaçaq Kərəm kimi daxilən zəngin, dünyanın varında-dövlətində gözü, marağı olmayan insanlar az-az gəlmişlər. Nəriman Həsənzadəin «Qaçaq Kərəm» poemasının diqqəti çəkən məqamlarından biri burada təsvir olunan hadisələrin dövrümüzlə, bu günümüzlə əlaqələndirilməsidir. Belə ki, Dağlıq Qarabağ itkisindən sonra doğma yurd yerlərindən ayrı salınan, çadır şəhərciklərində min bir müsibətlə həyat sürən qaçqın və köçkün dəstəsi şairə bu çətin günlərdə Qaçaq Kərəm kimi qəhrəman insanlara ehtiyac olduğunu xatırladır. Şairin qənaətincə, əgər Azərbaycanın Qaçaq Kərəm kimi qəhrəman oğulları qara, çovğuna, aclığa, səfalətə dözərək sinəsini səngərlərə gərmiş olsaydı, bu gün vətən torpaqları düşmən tapdağında qalmaz, qızlarımız, gəlinlərimiz əsir həyatı yaşamazdı. Lakin qeyd etmək lazımdır ki, Nəriman Həsənzadənin «Qaçaq Kərəm» poeması bədbin, pessimist əhvali-ruhiyyə ilə bitmir. Şair Azərbaycan kimi qüdrətli bir ölkənin yenidən Qaçaq Kərəm kimi qəhrəman oğullar yetirəcəyinə, millətimizin öz dərdlərini, problemlərini həll edəcəyinə inanır.

Dissertasiyanın **II fəslinin ikinci yarımfəsli** «**Dramaturji qəhrəmanın özünəməxsusluğu**» adlanır. Tədqiqatın bu yarımfəslində Qaçaq Kərəm haqqında yazılmış dramaturji əsərlər təhlil obyektinə çevrilmişdir.

Qaçaq Kərəm haqqında şeirlərlə yanaşı, dramaturji əsərlər də yaranmışdır. Görkəmli Azərbaycan dramaturqu Nəcəf bəy Vəzirovun «Keçmişdə qaçaqlar» əsəri bilavasitə Qaçaq Kərəmə həsr olunmuşdur. Lakin ötən əsrin altmışıncı illərinə qədər onun haqqında yazılan tədqiqatlarda bu məsələyə toxunulmamışdır. Məhz bu illərdə dramaturqun əsərlərinin elmi nəşri hazırlanarkən əsərin avtoqraf nüsxələrindən birinin «Kərəmlər, otuz il bundan əqdəm» olduğu aşkarlanmışdır.

Ədəbiyyatşünaslara bəlli olduğu kimi, Nəcəf bəy Vəzirovun «Keçmişdə qaçaqlar» pyesinin beş avtoqraf nüsxəsi mövcuddur. Bu nüsxələrdən ilk yarımçıq variantı «Qaçaqlar, otuz il bundan əqdəm» adlandırılmışdır. Burada obrazların adları da başqa cür verilmişdir: İsrafil bəy, Nadir bəy, İsmayıl bəy, İvan bəy, Hacı Qurban, Əli bəy, Rəşid, iki nəfər rus qadını. İkinci avtoqrafda əsərin adı «Otuz il bundan əqdəm» adlandırılmışdır. Əsərin üçüncü avtoqraf nüsxəsi isə «Kərəmlər, otuz il bundan əqdəm» adlandırılmışdır və bu nüsxə də yarımçıqdır. Pyesin dördüncü və beşinci

əlyazma nüsxələri «Keçmişdə qaçaqlar» adlandırılmışdır və dramaturqun əsərləri toplusunun bütün sonrakı nəşrlərində əsas kimi götürülmüşdür.

Qeyd etmək lazımdır ki, əsərin sonrakı nəşrlərində obrazların adlarında dəyişikliklər nəzərə çarpmaqdadır. Belə ki, ilk variantdakı İsrafil bəy (mahal hakimi) obrazı son nüsxədə İvan bəy Sərdarov (uyezd naçalniki) kimi verilmişdir. Pyesdəki digər obrazların da prototipləri aşkar şəkildə duyulmaqdadır. Müəllif çox güman ki, Camal obrazı ilə Molla Zal oğlu İskəndəri, Şahmar obrazının timsalında Kərəmi nəzərdə tutmuşdur.

Bütün bu faktlar göstərir ki, N.Vəzirov Qaçaq Kərəmlə müəyyən münasibətlə görüşmüş, ünsiyyət saxlamış və məhz bu amil «Keçmişdə qaçaqlar» pyesinin yaranmasını şərtləndirmişdir. Məlumdur ki, Qaçaq Kərəm ən çox Yelizavetpol, Qazax, Siqnax, Borçalı qəzalarında, Qarayazı və Dilican meşələrində, habelə İrəvan ətraflarında fəaliyyət göstərmişdir.

1878-1890-cı illərdə böyük Azərbaycan dramaturqu N.Vəzirov da Dilicanda meşəbəyi vəzifəsində çalışmışdır. Şübhəsiz ki, o, Zaqafqaziya, Rusiya və Yaxın Şərqdə rəsmi dairələrin nəzər-diqqətini cəlb etmiş Qaçaq Kərəmlə maraqlanmaya bilməzdi.

Nəcəf bəy Vəzirovun yaradıcılıq irsinin ötəri şəkildə nəzərdən keçirilməsi ədibin ayrı-ayrı əsərlərində, o cümlədən «Keçmişdə qaçaqlar» pyesində Çar Rusiyasının əyalətlərində baş verən hərc-mərcliyin, soyğunçuluğun, rüşvətxorluğun, digər bu kimi özbaşınalıqların sərt şəkildə tənqid edildiyini aşkara çıxarır.

«Keçmişdə qaçaqlar» pyesi rus kazaklarının əlindən xilas olmaq üçün Camal bəyin ailəsi və silahdahları ilə birlikdə Arazın o tayına – Azərbaycanın Güneyinə keçməsi səhnəsi ilə tamamlanır.

Xatırladaq ki, folklorşünas Rüstəm Rüstəmzadənin «Qaçaq Kərəm» dastanı və «Keçmişdə qaçaqlar» pyesi ilə bağlı müqayisəli araşdırmaları problemə aydınlıq gətirmək baxımından diqqəti çəkməkdədir. Məhz onun elmi axtarışları nəticəsində pyesin mövzu mənbəyi ilə bağlı əsl həqiqətin üzə çıxarılması istiqamətində ciddi addımlar atılmışdır. Belə ki, Rüstəm Rüstəmzadə Kərəmin qaçaqçılıq fəaliyyətini əks etdirən səhnələrlə N.Vəzirovun adı çəkilən pyesini analoji təhlilə cəlb edərək bir sıra ortaq məqamları üzə çıxarmış, pyesin adının dəyişdirilməsinin səbəblərini müəyyənləşdirməyə çalışmışdır.

Rüstəm Rüstəmzadənin fikrincə, «Keçmişdə qaçaqlar» pyesində adı çəkilən, lakin dramatik hadisələrin gedişində iştirak etməyən Əşrəf bəy N.Vəzirovun özüdür, çünki o da meşəbəyi vəzifəsində çalışır.

Rüstəm Rüstəmzadənin ardınca Qaçaq Kərəm haqqında tədqiqat aparan alimlərin əksəriyyəti bu məqama diqqət yetirmiş və N.Vəzirovun «Keçmişdə qaçaqlar» pyesini yeni aspektdə təhlilə cəlb etmişlər. Bütün bunlar aşkar şəkildə göstərir ki, dramaturq həmin pyesi Qaçaq Kərəmə həsr etmiş, onun həyatı, mübarizələri fonunda əsər yazmağı nəzərdə tutmuşdur.

Qaçaq Kərəmin həyatına, şəxsiyyətinə, mübarizələrinə böyük dəyər verən xalq şairi Hüseyn Arifin «Zal qızı Gülnaz» adlı pyes yazması da ədəbiyyatşünaslara məlumdur.

Şübhəsiz ki, Azərbaycan dramaturgiyasında Qaçaq Kərəmlə bağlı yazılan əsərlər yuxarıda bəhs olunan dramaturji nümunələrlə məhdudlaşmır. Digər əsərlərdə də bu və ya başqa şəkildə Qaçaq Kərəmlə bağlı məqamlara təsaduf olunmaqdadır.

Qaçaq Kərəm haqqında gürcü ədəbiyyatında da dram əsəri yaranmışdır. V.Y.Mçedlişvili «Qaçaq Kərəm» adlı pyes qələmə almış və həmin əsər 1925-ci ildə Azərbaycan türkcəsinə tərcümə edilərək Bakıda «Tənqid-təbliğ» teatrında, habelə Naxçıvan və Qazaxda səhnəyə qoyulmuşdur. Əsər tamaşaçılar tərəfindən maraqla qarşılandığından müəllif Azərbaycana dəvət edilmiş, Bakıda onunla görüş keçirilmişdir.

Dissertasiyanın **III fəsli «Qaçaq Kərəm obrazının Azərbaycan tarixi nəsrində təcəssümü»** adlanır. Bu fəsildə Qaçaq Kərəm haqqında yazılmış nəsr əsərləri təhlil edilmişdir.

Qaçaq Kərəm obrazına müraciət Azərbaycan bədii nəsrində daha intensiv və aparıcı mövqeyə malikdir. Belə ki, XX yüzildə bir sıra nəsr nümunələrində qaçaqçılıq hərəkatı kontekstində Qaçaq Kərəm obrazına müraciət olunmuş, maraqlı, orijinal sənət nümunələri ortaya çıxarılmışdır.

Azərbaycan xalq yazıçısı Mehdi Hüseynin yaradıcılığında Qaçaq Kərəm mövzusu özünəməxsus şəkildə işlənilmiş və xalq qəhrəmanının obrazının yaradılmasına çalışılmışdır. Yazıçının «Kərəm əfsanəsi» hekayəsi bu baxımdan səciyyəvidir. Məlum olduğu kimi, xalq arasında Qaçaq Kərəmin İsrafil ağanı yatarkən öldürmək istəməsi, lakin çadırda onu arvadı Həvva xanımla birgə gördüyündən bu vəziyyətdə düşmənini öldürməyi kişiliyinə sığışdırmaması, yatağının yanına bir qatar patrondaş ataraq çıxıb getməsi ilə bağlı rəvayət vardır. Maraqlıdır ki, Mehdi Hüseyn xalq arasında geniş yayılmış bu rəvayəti tam əksinə təsvir etmişdir. Hekayədə təsvir olunur ki, yaylaqda arvadı ilə birgə yatan Kərəm səhər oyananda dəyənin yanından bir daraq patron tapır və bunun İsrafil ağaya məxsusluğu bəlli olur. Hadisələrin gedişindən məlum olur ki, İsrafil ağa gecə Kərəmi

öldürmək üçün gəlmiş, lakin onu arvadı ilə birgə yatdığı yerdə aradan götürməyi qüruruna sığışdırmadığından nişanə qoyub çıxıb getmişdir.

Mehdi Hüseynin «Kərəm əfsanəsi» hekayəsində Qaçaq Kərəmlə bağlı rəvayətin təhrif olunmuş şəkildə təqdimi və əhvalatların süjetinin bu şəkildə qurulması Kərəmin deyil, onun düşməni olan İsrafil ağanın əsas qəhrəman kimi diqqət mərkəzində saxlanılması məramına söykənir.

Qaçaq Kərəm mövzusuna Azərbaycanın xalq yazıçısı İsmayıl Şıxlının «Namərd gülləsi» hekayəsində də müraciət olunmuşdur. Hekayədə Qaçaq Kərəmin canlı, dolğun obrazı yaradılmış, ona olan yüksək rəğbət, məhəbbət, el sevgisi bədii ifadəsini tapmışdır. Müəllif Qaçaq Kərəmlə bağlı yaranmış rəvayətləri vahid süjet daxilində birləşdirməyə çalışmamış, sadəcə bunlardan birini almış və hadisələri də bu məcrada təsvir etməyə üstünlük vermişdir.

Hadisələrin başdan-başa gərgin süjet fonunda cərəyan etdiyi hekayədə qəfil açılan namərd gülləsi ilə qətlə yetirilmiş Niftalı koxa ilə düşməni Kərəmin qarşılaşması və qarşılaşmada düşmənçiliyə baxmayaraq insani dəyərlərin hər şeydən yüksəkdə dayandığı orijinal bir dəst-xətlə təsvir olunur.

Azərbaycan nəsrində Qaçaq Kərəm obrazına müraciətlə yazılmış ən dəyərli bədii nümunələrdən biri yazıçı Fərman Eyvazlının «Qaçaq Kərəm» romanıdır. Yalnız müəllifin yaradıcılığında deyil, bütövlükdə milli tarixi nəsrimizin dəyərli əsərlərindən biri olan bu roman yarandığı dövrdən başlayaraq ədəbi-tənqidi fikrin diqqətini çəkmiş, mətbuatda və ayrı-ayrı araşdırmalarda haqqında bir sıra müsbət rəy və mülahizələr söylənilmişdir.

Romanın maraqla qarşılanmasının əsas səbəblərindən biri onun tarixi mövzuda qələmə alınması, Azərbaycan tarixində mühüm yer tutan şəxsiyyətlərdən birinə – Qaçaq Kərəmə həsr olunmasıdır. Romanın yaranmasına qədər xalq arasında Qaçaq Kərəm haqqında danışılan əfsanə, rəvayət və dastanlar ona olan diqqəti xeyli dərəcə artırmış və əsərin geniş auditoriyanın marağına səbəb olmasını təmin etmişdir.

Fərman Eyvazlının «Qaçaq Kərəm» romanında cərəyan edən hadisə və əhvalatların mərkəzində Kərəm obrazı dayanmaqdadır. Yazıçı romanın süjetini və əhvalatların istiqamətini müxtəlif səmtə yönləndirsə də, bütün məqamlarda Qaçaq Kərəmin taleyini izləmiş, onun daxili-mənəvi dünyasının fərqliliklərini, ziddiyyətlərini açmağa, aşkarlamağa çalışmışdır.

Romanda şəxsi düşmənçilik zəminində qaçaqçılığa başlayan Kərəmin sonralar biri-birinin ardınca cərəyan edən hadisə və əhvalatların məcrasında püxtələşərək siyasi şəxsiyyətə çevrilməsi inandırıcı və yaddaqalan detallarla təsvir olunmuşdur. Ciddi təhsil görməyən Kərəmin mübarizə və mücadilələr

fonunda formalaşması, yetkinləşməsi prosesi o qədər real əks olunmuşdur ki, oxucu əsərin həyatiliyinə, təbiiliyinə, canlılığına qətiyyən şübhə etmir. Xüsisilə, romanın sonunda Kərəmin bütöv Azərbaycan dövlətçiliyi mənafeyindən çıxış etməsi təbii təsir bağışlayır. Bu kimi məqamlar Qaçaq Kərəmin bir şəxsiyyət kimi ictimai ideallarla yaşadığını əks etdirmiş olur.

«Qaçaq Kərəm» romanında bir tərəfdən Rusiya imperiyasının, digər tərəfdən isə İran despotizminin daxili siyasəti kəskin tənqid və ifşa hədəfinə çevrilmiş və bu siyasətin qurbanı olan insanların yaşadığı həyatın acı mənzərələri təsvir olunmuşdur. Şübhəsiz ki, yazıçı təsvir etdiyi hadisə və əhvalatların reallığını təmin etmək üçün bu kimi məqamları dövrün sosial-siyasi şərtlərinə uyğun şəkildə canlandırmaq məramı izləmişdir.

Fərman Eyvazlının «Qaçaq Kərəm» romanında təsvir olunan hadisə və əhvalatların mühüm bir qismi yazıçının baş qəhrəman kimi seçdiyi Kərəmlə İsrafil ağa arasında cərəyan etməkdədir. Tarixi faktlar və sənədlər işığında təqdim edilmiş hər iki obrazın xarakter cizgilərində oxşar məqamlar müşahidə olunmaqdadır. Bu oxşarlıq xalqın adət və ənənələrinə, mərdlik, insanpərvərlik və kişilik anlayışlarına eyni dərəcədə sayğı göstərilməsində özünü büruzə verməkdədir.

Yazıçı İsrafil ağanın mərdliyini, xarakterinə məxsus digər əxlaqi keyfiyyətləri göstərmək üçün onu yalnız Qaçaq Kərəmlə qarşılaşdırmaqla kifayətlənməmiş, eyni zamanda, hadisə və əhvalatların gedişində iştirak edən digər obrazlarla əlaqə, ünsiyyət və qarşılıqlı münasibətdə təqdim etmişdir.

«Qaçaq Kərəm» romanının ikinci hissəsində əhvalatlar Azərbaycanın Güneyində və İranda cərəyan etməkdədir. Burada Qaçaq Kərəmin İrana keçməsi, orada başına gələn əhvalatlar, Nəsrəddin şah və vəliəhd Müzəffərəddinlə görüşləri təsvir olunmuşdur. Yazıçı Qaçaq Kərəmin bu ölkədə apardığı mübarizənin real panoramını əks etdirmək üçün tarixi hadisələrə nəzər salmış, xüsusilə Səttarxanın başçılığı ilə aparılan İran Məşrutə hərəkatına Kərəmin münasibətini aydınlaşdırmağa çalışmışdır.

Azərbaycan nəsrində Qaçaq Kərəmə həsr olunan əsərlər içərisində Şəmistan Əsgərovun «Haçadağ» romanı da xüsusi yerlərdən birini tutmaqdadır. Fərman Eyvazlının «Qaçaq Kərəm» əsərində olduğu kimi Şəmistan Əsgərovun «Haçadağ» romanında da Qaçaq Kərəmin obrazının yaradılması əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

Şəmistan Əsgərovun «Haçadağ» romanını səciyyələndirən ən mühüm keyfiyyətlərdən biri əsər müəllifinin dövrün tarixi-siyasi hadisələrinə kifayət qədər bələd olması, Qaçaq Kərəmlə bağlı yazılan ədəbi-tarixi qaynaqları,

xalq arasında söylənən rəvayət və dastanları diqqətlə izləməsidir. Şübhəsiz ki, bu cəhət müəllifə dövrün ruhunu, təsvir etdiyi obrazın daxili-mənəvi dünyasını təfərrüatı ilə əks etdirməyə imkan vermişdir.

Qaçaq Kərəm haqqında yazılan bədii nəsr nümunələri içərisində Vəli Ləmbəlinin yaradıcılıq örnəkləri də özünəməxsusluğu, tarixi hadisələrə fərqli kriteriyalarla yanaşması baxımından diqqəti çəkməkdədir. O, əvvəlcə Qaçaq Kərəm haqqında «Kərəm dastanı» adlı povest yazmışdır. Həcmcə o qədər də böyük olmayan bu əsər sırf dastan üslubunda qələmə alınmışdır. Povestdə təsvir olunan əhvalatlar əsasən Qaçaq Kərəmlə İsrafil ağa arasında baş verən hadisə və məlum konflikt üzərində qurulmuşdur.

Lakin Vəli Ləmbəli povest üzərində işini davam etdirmiş, topladığı yeni fakt və sənədləri yeni səpkidə işləyərək «Dağlarda kişnərti» adlı roman yazmışdır. Bu roman «Kərəm dastanı» adlı povestdən yalnız həcmcə böyüklüyü, tarixi fakt və sənədlərin zənginliyi ilə deyil, həmçinin süjetin gedişinə əlavələrlə və yaradılmış yeni obrazları ilə fərqlənməkdədir.

Fərman Eyvazlının «Qaçaq Kərəm» romanında təsvir olunan hadisə, epizod və əhvalatlara bu və ya digər şəkildə Vəli Ləmbəlinin «Dağlarda kişnərti» əsərində təsadüf olunmaqdadır. Lakin Fərman Eyvazlı «Qaçaq Kərəm» romanında təsvir etdiyi epizodları bütün təfərrüatı ilə əks etdirdiyindən onların hər biri müstəqil əsəri təsiri bağışlayır. Vəli Ləmbəlinin «Dağlarda kişnərti» romanında isə diqqəti çəkən əsas məqamlardan biri ayrı-ayrı epizodların vahid süjet ətrafında birləşdirilməsi, biri-biri ilə əlaqələndirilməsidir.

Vəli Ləmbəlinin «Dağlarda kişnərti» romanında Qaçaq Kərəmin həyatının Güney Azərbaycan və İranla bağlı səhifələri də öz əksini tapmışdır. Yazıçı Kərəmin doğma yerlərdən ayrıldıqdan sonra başına gələn əhvalatları diqqətlə izləmiş və ardıcıllıqla təqdim etməyə çalışmışdır.

Yazıçı Eldar İsmayıl və Hüseyn Ələsgəroğlunun birlikdə qələmə aldıqları «Göyçənin qisası qalır» romanında Qaçaq Kərəmlə bağlı məqamlar diqqəti çəkməkdədir. Romanda Qaçaq Kərəmlə bağlı bir epizod yer almış və bu epizod fonunda tarixi şəxsiyyətin daxili-mənəvi dünyasına işıq tutulmuşdur.

Təhlilə cəlb olunan əsərlərdən göründüyü kimi, Qaçaq Kərəm mövzusu Azərbaycan bədii nəsrində ciddi şəkildə işlənilmiş, onun obrazı hekayə, povest, romanların əsas qəhrəmanına çevrilmişdir.

«**Nəticə**»də dissertasiyanın ayrı-ayrı fəsillərində irəli sürülən fikir və mülahizələr ümiləşdirilmişdir.

**Araşdırılan mövzu ilə bağlı dissertantın aşağıdakı kitab və məqalələri çap olunmuşdur:**

1. Xalq qəhrəmanının bədii obrazı. Monoqrafiya.Bakı: Nurlan, 2007, 166 s.
2. Tarixi qəhrəmanın bədii obrazı // Azərbaycan filologiyasının aktual problemləri, Bakı, 2007, s. 221-225
3. Qaçaq Kərəm obrazı dramaturgiyada // Onomastika, Bakı, 2008, № 1-2, s. 193-198
4. Qaçaq Kərəm obrazının poeziyada təcəssümü // Onomastika, Bakı, 2008, № 4, s. 214-222
5. Tarix o dövranı qaytaran deyil // Filologiya məsələləri, Bakı, 2008, № 2, s. 331-343
6. Qaçaq Kərəm obrazı dramaturgiyada // Filologiya məsələləri, Bakı, 2008, № 3, s. 399-406
7. Qaçaq Kərəm hekayə qəhrəmanı kimi // Filologiya məsələləri, Bakı, 2008, № 4, s. 286-295
8. Qaçaq Kərəm rəvayətlərdə yaşayan obraz // Dil və ədəbiyyat, Bakı, 2009, № 1(67), s. 117-121
9. Образ Гачаг Керема в русской литературе / Фальклор і сучасная культура: матэрыялы III Міжнар. навук.-практ. канф., 21-22 крас. 2011 г., Мінск. У 2 ч. Ч. 2 / рэдкал.: І.С. Роўда [і інш.]. – Мінск: Выд. цэнтр БДУ, 2011. – С. 57 – 58
10. Синтез фольклора и истории в романе Ф.Эйвазлы «Гачаг Керем» // Вестник Пятигорского государственного лингвистического университета, 2011, № 2, с. 157-163
11. Qaçaq Kərəm dastan qəhrəmanı kimi // «Kitabi-Dədə Qorqud və türk dünyası». Beynəlxalq elmi konfransın materialları, 29 dekabr 2015-ci il, Bakı, 2015, s. 547-550

**Гасанова Фирангиз Эльдар гызы**

# ОБРАЗ ГАЧАГ КЕРЕМА В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ

## Резюме

Диссертационная работа состоит из «Введения», трех глав, «Заключения» и списка использованной литературы.

Во «Введении» обосновываются актуальность темы, научная новизна, теоретическая и практическая значимость работы; даются сведения об объекте, целях, задачах, источниках и методах исследования, об апробации и структуре диссертации.

В I главе диссертации – «Образ Гачаг Керема в фольклоре» объектами исследования стали образцы фольклора об этом народном герое. В состоящей из двух разделов главе общие аспекты проблемы характеризуются на фоне текстов возникших в фольклоре сказаний, эпосов и сюжетов. Исследование проводится, в основном, в контексте образцов народного творчества и фольклористики. Здесь отдано предпочтение сопоставительному анализу текстов различных эпосов о Гачаг Кереме в плане создания образов. Так, повествующие об этом герое эпосы и эпические тексты Гамли Гусейна, Гул Вели, Ашуга Магомеда из Гёкча и Ашуга Гашима освещаются здесь в свете затронутой темы.

Во II главе диссертации – «Воплощение образа Гачаг Керема в поэзии и драматургии» объектами исследования стали произведения, которые были написаны в азербайджанской поэзии и драматургии на эту тему. Глава состоит из двух разделов, где анализируются образы этого народного героя, созданные в поэзии и драматургии. К исследованию привлечены стихи и поэмы М.С.Ордубади, С.Вургуна, О.Сарывелли, Г.Арифа и Н.Гасанзаде, пьеса Н.Везирова «Кечмишде гачаглар» и др. авторов.

III глава называется «Воплощение образа Гачаг Керема в азербайджанской исторической прозе». Анализ привлеченных к исследованию романов, повестей и рассказов показал, что основным признаком этих произведений является их народность, т.е. обусловленность жизнью, идеями, чувствами и стремлениями народа. Эпические произведения, в которых правдиво изображен образ Гачаг Керема, отличаются глубиной проникновения в жизненные явления. Еще одной особенностью данных произведений является простота и выразительность их языка, широкое использование народной речи. Здесь для придания выразительности языку произведений включены элементы устного народного творчества.

В заключительной части диссертации обобщаются основные научные выводы исследования.

**Firangiz Eldar gizi Hasanova**

## GACAGH KARAM'S CHARACTER IN AZERBAIJANI LITERATURE


### Summary

The dissertational work consists of the "Introduction", three chapters, "Conclusion" and the list of the references.

In "Introduction" are proved the theme urgency, scientific novelty, the theoretical and practical importance of work; data on object, the purposes, problems, sources and research methods, on approbation and dissertation's structure.

In I head of the dissertation – "The Gachagh Karam's character in folklore" samples of folklore about this national hero became objects of research. In the chapter consisting of two sections are characterized the general aspects of a problem on the background of the legends which have arisen in folklore, eposes and plots. Research is spent, basically, in a context of samples of national creativity and folkloristic. There are texts of various eposes about Gachagh Karam as the preference has been given to the comparative analysis in respect of creation of characters. So, eposes narrating about this hero and epic texts of Gamli Huseyn, Gul Vali, Ashig Muhammad from Geokcha and Ashig Hashim are shined here in the light of the researchable problem.

In chapter II of the dissertation – "The embodiment of Gachagh Karam's character in poetry and dramatic art" products of the Azerbaijani poetry and dramatic art have been objects of research. The chapter consists of two sections and there are analyzed the images of this national hero created in poetry and dramatic art. M.S.Ordubadi, S.Vurghun, O.Saryvelli, G.Arif and N.Hasanzadeh's verses and N.Vezirov's play "Kechmishde gachaghlar", etc. authors works are involved to the research.

The chapter III is called "The embodiment of Gachagh Karam's character in the Azerbaijani historical prose". The analysis of the novels and stories involved in research has shown that the basic sign of these products is in their nationality, i.e. conditionality a life, ideas, feelings and aspirations of the people. Epic products which is the truthfully represented the Gachagh Karam's character are differ depth of penetration into the vital phenomena. Simplicity and expressiveness of their language, wide using of national speech is some more features of the product. There are elements of oral national creativity have been included for the expressiveness to language of products.

In "Conclusion" of the dissertation are generalized the basic scientific results and the judgments which have been put forward during research.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ГАСАНОВА ФИРАНГИЗ ЭЛЬДАР гызы**

# ОБРАЗ ГАЧАГ КЕРЕМА В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ

**5716.01 – Азербайджанская литература**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по филологии**

**БАКУ – 2016**